# Rəngarəng tədbirlər

*Bakının Nərimanov rayonundakı A.P.Çexov adına kütləvi kitabxana 1956-cı ildən fəaliyyət göstərir. Yarım əsrdən artıq xalqa xidmət edən bu mədəniyyət ocağı ötən dövr ərzində minlərlə insanın maariflənməsində, bilik əldə etməsində misilsiz rol oynamışdır.*

Hazırda kitabxananın 77254 nüsxə kitab fondu vardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə bağlı nəşr olunan kitablardan 5238-i bu mədəniyyət ocağına hədiyyə edilmişdir. Kitabxana geniş bir əraziyə xidmət göstərir və 9666 nəfər daimi oxucusu vardır. Latın qrafikalı ədəbiyyatın kitabxanaya daxil olması oxucuların sayını xeyli artırmışdır.

Kitabxanada oxu zalı, Azərbaycan, rus, uşaq və kitabişləmə şöbələri mövcuddur. Oxu zalında müxtəlif mövzularda olan kitabların təbliği ilə əlaqədar bir sıra guşələr yaradılmışdır. Ulu öndər Heydər Əliyevin adı ilə bağlı guşə zənginliyi ilə seçilir. Son illərdə görkəmli dövlət xadiminin hərtərəfli fəaliyyəti barədə qələmə alınmış kitablar toplanmışdır. Oxucular oxu zalında həmin nəşrlər vasitəsilə dahi şəxsiyyətin həyatı, içtimai fəaliyyəti haqqında geniş məlumat əldə edirlər.

«Şəhidlər» guşəsində Dağlıq Qarabağ uğrunda döyüşlərdə igidlik göstərmiş qəhrəmanlar barədə yazılmış əsərlər toplanmışdır. «31 mart azərbaycanlıların soyqırımı günüdür» guşəsində qəddar ermənilərin törətdikləri faciələrdən bəhs edən nəşrlər oxuculara təqdim olunur. «Tariximizin yaddaşı Şuşa» foto-stendində əsrarəngiz gözəlliyə malik qədim və əbədiyaşar Şuşa mənzərələrinin təsviri verilmişdir.

BDU-nun kitabxanaçılıq fakultəsinin məzunu olan Cəmilə Abdinova 1986-cı ildən burada çalışır. O, 1993-cü ildən kollektivə rəhbərlik edir. Kitabxananın işi barədə onunla söhbət zamanı Cəmilə xanım bildirdi:

– Kollektivimizin üzvləri öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylə çalışırlar. Ötən il xalq şairləri Səməd Vurğunun, Süleyman Rüstəmin 100, Sabir Rüstəmxanlının 60, «Molla Nəsrəddin» jurnalının 100 illik yubileyləri oxucuların iştirakı ilə geniş şəkildə qeyd olunmuşdur. Cari ildə də əvvəlcədən iş planı hazırlanmış və bir sıra rəngarəng tədbirlər həyata keçirilmişdir. «Vətənin qəhrəman oğulları», «Xocalı faciəsi», «Qədəmlərin mübarək, Novruzum», «Müşfiq dünyası» və başqa mövzularda kitabxanada mühazirələr təşkil olunmuşdur.

Ulu öndər H.Əliyevin ad günü ilə əlaqədar may ayında «Ürəklərdə yaşayan şəxsiyyət» mövzusunda yığıncaq keçirmişik. Kitabxanamızda «28 May-Respublika günü» təntənəli şəkildə qeyd olunmuş, iyun ayının ilk günüdə «Uşaqlar bizim gələcəyimizdir» mövzusunda məruzə dinlənilmişdir. Bu işlərin görülməsində kitabxananın işçilərindən Arzu Xəlilova, Sona Məmmədova, Bibixanım Aslanova böyük əmək sərf etmişlər.

A.P.Çexov adına kitabxanada gənclərin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Vətən uğrunda canından keçən qəhrəmanların həyatı və mübarizəsi təbliğ olunur, tez-tez cəsurlardan bəhs edən əsərlərin müzakirəsi aparılır. Bu yaxınlarda Azərbaycanın Milli Qəhrəmanı, şəhid jurnalist Alı Mustafayevin anadan olmasının 55 illiyi ilə əlaqədar yığıncaq keçirilmişdir. Hazırda Azərbaycan mühacirət ədəbiyyatının ən görkəmli nümayəndəsi Almas İldırım və xalq şairi Məmməd Rahimin anadan olmasının 100 illik yubileylərinə hazırlıq işləri gedir, görkəmli sənətkarların əsərlərinin oxusu təşkil olunur, yaradıcılıqları təbliğ edilir.

**Bayram ASLANOV**